AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**Təsdiq edirəm:**
**"İctimai idarəetmə və sosial innovasiyalar"**
**kafedrasının müdiri: i.f.d., dos. E.Q.Məmmədov**
**12 sentyabr 2025-ci il**

# "Bələdiyyə idarəetməsi"

**fənni üzrə İŞÇİ TƏDRIS PROQRAMI**

**(Sillabus)**

## I. Fənn haqqında məlumat

**Fənnin kodu:** 00164

**Fənnin növü:** əsas

**Tədris ili:** 2025/2026

**Tədris semestri:** payız, yaz

**Fakültə:** İqtisadiyyat və idarəetmə

**Qrup:** 254, 255

**Tədris yükü:** 60 saat (mühazirə)

**Kredit sayı:** 8 (səkkiz)

**Kafedra:** «İctimai idarəetmə və sosial innovasiyalar»

## II. Müəllim haqqında məlumat

**Fənni tədris edən müəllim:** Əhmədov Faiq

**E-mail ünvanı:** *Faiq.ahmadov@unec.edu.az*

**İş telefonu:** **(012) 564-37-05**

**Tələbələr üçün qəbul vaxtları: bazar ertəsi , saat 12.00-14.00**

## III. Fənnin təsviri

Bu fənn ümumi (əsas) fənnlər siyahısına daxil olmaqla bakalavr pilləsində təhsil alan tələbələrə bələdiyyə idarəçiliyiliyinə xas olan elemetləri, davranış parametrləri birləşdirir. Müasir dövrün qeyri-müəyyənliklərinə, eyni zamanda gözlənilməyən dəyişikliklərə adekvat cavabın verilməsi idarəçilik sistemində menecerin təşkilatçılıq və uzaqgörənlik məharətindən daha çox asılı olur.

Fənndə blədiyyə idarəçiliyinin iqtisadi mahiyyəti, nəzəriyyələri, səlahiyyətləri, prinsipləri və bazar iqtisadiyyatı şəraitində idarəçiliyə xas olan yeri keyfiyyət parametrləri araşdırılır. "Bələdiyyə idarəçiliyi" fənni təşkilatın insan resurslarını, qrupları, kollektivi, kollektivdaxili dinamikanı, qrupun fəaliyyətinə təsir edən amilləri, kollektivdəki sosial-psixoloji mühiti müəyyənləşdirir.

## IV. Kursun məqsədi və vəzifələri:

Kursun tədrisində başlıca məqsəd tələbələrdə idarəçilik təfəkkürünü formalaşdırmaq və inkişaf etdirməkdir. Digər tərəfdən bələdiyyə idarəetməsinin tarixi dövrləri, elmi yanaşmalar, nəzəriyyələri, metodları, müasir təşkilati quruluş formaları, heyətin idarə edilməsi və s. haqqında ətraflı biliklərə yiyələnməsinə nail olmuş əsas məqsədlərdəndir.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

Bələdiyyələr haqqında tələbələrdə strateji və innovativ düşüncə tərzini formalaşdırmaq;

- Bələdiyyələrin ictimai-iqtisadi proseslərdəki rolunun açıqlanması;
- Yerli özünüidarəetmənin orqanlarının təşkili sahəsində idarəetmə strukturunun dünya təcrübəsində mövcud modellərinin izah olunması;
- Bələdiyyə büdcələrinin formalaşması xüsusiyyətlərinin və bu büdcələrin sosial-iqtisadi inkişafa təsirinin öyrənilməsi;

Regional idarəetmə ilə yerli özünüidarəetmə arasında qarşılıqlı fəaliyyət mexanizminin qurulması;

- Yerli özünüidarəetmənin beynəlxalq təcrübəsi və Azərbaycan şəraitində ondan istifadə problemlərinin araşdırılması;
- Bələdiyyə mülkiyyətinin quruluşu və istifadə texnologiyaları haqqında biliklərin çatdırılması.

## V. Fənnin tədris metodologiyası.

Fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, ayrı-ayrı mövzular üzrə slaydların hazırlanması, işgüzar oyunlar, xüsusi nümunələrin (keys) öyrənilməsi və təhlili, yaxud sərbəst işlərin yazılması və test

tapşırıqlarının yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təhlil üsullarından istifadə edilir.

Əlavə olaraq tədris və təhlili prosesində xarici və yerli ədəbiyyatlardan, internet resurslarından götürülmüş məqalələrin, xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq.

## VI. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- Yerli özünüidarə: əsas anlayışlar və nəzəriyyələr;
- Yerli özünüidarəetmənin təşkili modelləri və xüsusiyyətləri;
- Bələdiyyə mülkiyyətinin iqtisadi məzmunu, strukturu və formalaşması;
- Bələdiyyə mülkiyyətinin təzahürü xüsusiyyətləri;
- Bələdiyyə mülkiyyətinin idarə olunması sistemi;
- Bələdiyyə mükiyyətinin idarə edilməsi metodları;
- Bələdiyyə mülkiyyətinin idarə olunmasının beynəlxalq təcrübəsi;
- Bələdiyyələşmə - sosial infrastrukturların keyfiyyətcə yenidən qrulmsının əsası kimi;

**Bacarmalıdırlar:**

- Yerli özünüidarə ilə bağlı əsas anlayış və nəzəriyyələrində olan yanaşmaları fərqləndirmək;
- Azərbaycanda bələdiyyəlşmənin özəlliklərini qiymətləndirmək;
- Yerli özünüidarəetmənin iqtisadi əsaslarını müəyyən etmək;
- Yerli özünüidarəetmənin təşkili modellərinin analitik təhlilini vermək;
- Regionun sosial-iqtisadi inkişafında yeni prioritetlərin müəyyən olunması və sistemli yanaşma;
- Yeni təşkilat-təsərrüfat formalarının tətbiqi əsasında istehsalın miqyasına təsir göstərən amillərin qiymətləndirilməsi.

Bələdiyyələrin gəlirlərinin formalaşması və maliyyə münasibətlərinin tənzimlənməsinin mexanizmi şərh olunmalıdır.

## VII. Prerekvizitlər

Yoxdur.

## VIII. Fənnin mühazirə mövzuları

Fənnin tədrisi zamanı tələbələrə aşağıdakı məzmunda mühazirələr təqdim ediləcək:

1. Bələdiyyə idarəçiliyi" kursunun predmeti, məqsəd və vəzifələri.
2. Yerli özünüidarəetmənin təşkili.
3. Bələdiyyələrin hüquqi əsasları.

4. Yerli özünüidareətmənin səlahiyyətləri.
5. Yerli özünüidareətmənin təminatları.
6. Yerli özünüidareətmənin orqanlarının təşkili idarəetmə strukturunun dünya təcrübəsində mövcud modelləri.
7. Regional idarəetmə və yerli özünüidareətmə: qarşılıqlı fəaliyyət mexanizmi.
8. Yerli özünüidareətmənin mahiyyəti və funksiyaları.
9. Azərbaycanda yerli özünüidareətmənin tarixi dərsləri.
10. Yerli özünüidareətmənin beynəlxalq təcrübəsi və Azərbaycanda istifadəsi problemləri.
11. Bələdiyyə səviyyəsində mənzil problemlərinin həlli metodları. Şəhər və rayon istehsal və iqtisadi subyektləri ilə bələdiyyə orqanlarının qarşılıqlı fəaliyyət mexanizmi.
12. Bələdiyyə mülkiyyətinin strukturu və istifadə texnologiyaları.
13. Bələdiyyə maliyyəsi.
14. Yerli özünüidarə orqanlarının informasiya və kadr təminatı.
15. Bələdiyyələrin fəaliyyətinə nəzarət sistemi. Bələdiyyələrin məsuliyyəti.

## IX. Fənnin mühazirə mətnləri

Fənnə aid bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (**unec.edu.az** ) yerləşdirilir.

## X. Əsas dərslik və dərs vəsaitləri

**1.Firuz Demir Yaşamış: "Bələdiyyə yönümlü". Ankara 1996.**

**2. Güləliyev M., Zülfiqarlı M., Güləliyev Ç. Yerli özünüidarə: avropa təcrübəsi. Vətəndaş Təşəbbüsləri mərkəzi, Bakı: Çaşıoğlu, 2003.**

**3. Ş.H. Hacıyevin ümumi rəhbərliyi ilə. "Dövlət və bələdiyyə idarəçiliyi". İqtisad Universiteti-2010.**

Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | "Bələdiyyə idarəçiliyi" kursunun predmeti, məqsəd və vəzifələri | Mövzunun əsas məzmunu. Yerli özünüidarə nəzəriyyəsi və dövlət idarəçiliyi məsələlərinin bir hissəsinin yerli icmaya verilməsinin məqsəd və vəzifələri. | **3** (fəsil 8)<br>**2** (fəsil 1) |
| 2 | Yerli özünüidarəetmənin təşkili | Yerli özünidarənin təşkili məsələləri şərh olunarkən dünya təcrübəsinə müvafiq modellər, eyni zamanda yerli özünüidarəetmənin həyata keçirilməsinin forması | **1** (fəsil 2)<br>**2** (fəsil 2.3)<br>**3** (fəsil 8.2) |

| | | | |
|---|---|---|---|
| 3 | Bələdiyyələrin hüquqi əsasları | Vətəndaş cəmiyyətinin yaradılması xalq hakimiyyətinin, demokratik, hüquqi dövlətin əsaslarının möhkəmlənməsi yerli özünüidarəetmənin inkişafını və konstitutsiya hüquq statusunun möhkəmləndirikməsini şərtləndirir | **2** (fəsil 3.4)<br>**3** (fəsil 6.8) |
| 4 | Yerli özünüidareətmənin səlahiyyətləri | Yerli demokratiyanın inkişafı naminə hakimiyyıt ilə yerli özünüidarə orqanları arasında səlahiyyət bölgüsünün mövcud ali prinsiplərə əsaslandırılması. | **1** (fəsil 2.3)<br>**2** (fəsil 2) |
| 5 | Yerli özünüidareətmənin təminatları | Yerli özünüidarəetmənin vəzifə və funksiyalarının həyata keçirilməsində mühüm rol oynayan onların hüquqularının təminatı sisteminin formalaşmasıvə bunun əsasında bələdiyyə hüquq normalarının müəyyən olunması | **2** (fəsil 4.5)<br>**3** (fəsil 8) |
| 6 | Yerli özünüidareətmənin orqanlarının təşkili idarəetmə strukturunun dünya təcrübəsində mövcud modelləri | Dünya təcrübəsində idarəetmə sistemini təşkil edən əsas elementlərin mümkün olan birləşmələri və onun azərbaycan şəraitində mövcudluğu, eyni zamanda bələdiyyə orqanlarının idarəetmə sistemində yeri | **1** (fəsil 6)<br>**2** (fəsil 5.6) |
| 7 | Regional idarəetmə və yerli özünüidareətmə: qarşılıqlı fəaliyyət mexanizmi | Regional idarəetmə hər şeydən əvvəl infrastruktur sahələrin inkişafı ilə bağlı olduğundan əmək bölgüsü əsasında yerli özünüidarəetmə ilə onun fəaliyyət proqramının birgə qurulması və həyata keçirilməsi vacib sayılır | **1** (fəsil 3)<br>3( fəsil 12) |
| 8 | Yerli özünüidareətmənin mahiyyəti və funksiyaları | Bələdiyyə yerli özünüidarəni həyata keçirən orqan kimi əhaliyə xidmət göstərən yerli əhəmiyyətli məsələləri həll edən idarəetmə strukturu başa düşülür. Yerli özünüidarəetmə xalq hakimiyyətinin istifadəsi kimi qiymətləndirilir. | **1** (fəsil 1,2, 3)<br>**3** (fəsil 8) |
| 9 | Azərbaycanda yerli özünüidareətmənin tarixi dərsləri | Yerli özünüidarə təcrübəsinin qədimiliyinə istinad etməklə vətəndaş cəmiyyətinin formalaşmasının əhəmiyyətli dərəcədə yerli özünüidarəetmənin inkişaf | **2** (fəsil 2, 3)<br>**3** (fəsil 8, 3) |

| | | | |
|---|---|---|---|
| | | etdirilməsində asılıllığını subut edir. | |
| **10** | Yerli özünüidareətmənin beynəlxalq təcrübəsi və Azərbaycanda istifadəsi problemləri | Yerli özünüidarəetmə orqanlarının formalaşması qaydaları müəyyən olunarkən ən başlıca yerli orqanlara xüsusi seçkilərin keçirilməsi və onun təşkilidir. Seçki qanunvericiliyi əsasında seçkilər həm birmandatlı, həm də çoxmandatlı dairələr üzrə keçirilir. | **2** (fəsil 5, 6)<br>**3** (fəsil 8) |
| **11** | Bələdiyyə səviyyəsində mənzil problemlərinin həlli metodları. Şəhər və rayon istehsal və iqtisadi subyektləri ilə bələdiyyə orqanlarının qarşılıqlı fəaliyyət mexanizmi | Xalq hakimiyyətinin tərkib hissəsi kimi bələdiyyələr sosial sahələrdə də geniş səlahiyyətlərə malik olur. Bu prosesin həyata keçirilməsində yerli sosial müdafiə və sosial inkişa proqramlarının həyata keçirilməsi zəruridir. | 1(fəsil 6)<br>3( fəsil 11) |
| **12** | Bələdiyyə mülkiyyətinin strukturu və istifadə texnologiyaları | Bələdiyyə mülkiyyəti – yerli özünüidarəetmənin ən mühüm iqtisadi əsaslarından biri kimi onun strukturu əldə olunma üsulları və yaradılma mənbələrinin müxtəlifliyi ilə müəyyən edilir. Yaradılma mənbələrindən asılı olaraq bələdiyyə mülkiyyətinin tərkibinə: alınmış mülkiyyət; bələdiyyələrin vəsaitləri hesabına yaradılmış mülkiyyət; bələdiyyə məhsul fondu; qeyri-yaşayış binalar;v mühəndis infrastruktur obyektləri daxil olur. | **1** (fəsil 5)<br>3( fəsil 9) |
| **13** | Bələdiyyə maliyyəsi | Yerli özünüidarəetmə orqanlarının maliyyə-büdcə sahəsində səlahiyyətləri ölkə konstitusiyası və qanunları ilə tənzimlənir. Yerli özünüidarəetmənin maliyyə əsaslarından biri də qanunvericiliklə müəyyən olunmuş qaydada yaradılmış məqsədli büdcədənkənar fondlar hesab olunur. | **1** (fəsil 10);<br>**3** (fəsil 9); |
| **14** | Bələdiyyələrin fəaliyyətinə nəzarət sistemi. | Bələdiyyə idarəçiliyinin informasiya təminatının əsasını informasiya resursları təşkil etdiyindən bələdiyyə | **2** (fəsil 7);<br>**3** (fəsil 12); |

| | | | |
|---|---|---|---|
| | Bələdiyyələrin məsuliyyəti | orqanlarının informasiya resursları ilə təmin edəcək informasiya sistemlərinin mühüm əhəmiyyət kəsb edir. | |
| **15** | Bələdiyyələrin fəaliyyətinə nəzarət sistemi. Bələdiyyələrin məsuliyyəti | Demikratik dövlət quruculuğunun tərkib hissəsi kimi bələdiyyələrin fəaliyyətinə istimai və inzibati nəzarət qaydalarının mövcudluğu bələdiyyə orqanlarının və vəzifəli şəxslərinin əhali və dövlət qarşısındakı məsuliyyətini, habelə bələdiyyələrin fiziki və hüquqi şəxslər qarşısında məsuliyyətlərini daha da artırır. | **3** (fəsil 11) |
| | **Yekun imtahan** | | |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda smestr ərzində tələbənin bütün cavab balları toplanır və tələbənin cavablarının ümumi sayına bölünməklə orta qiymət (bal) hesablanır.

## XIII. Fənn üzrə kurs işi

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

## XIV. Sərbəst işlər: tələblər və qiymətləndirmə

Semestr ərzində tələbələrə 1 (10 ballıq), 2 (hər biri 5 ballıq) yaxud 10 (hər biri 1 ballıq) sərbəst iş tapşırığı verilir. Sərbəst işlər tələbələr tərəfindən təkbaşına və ya qrup işi formasında işlənə bilər. Sərbəst iş çap və ya elektron formada, yaxud əlyazma şəklində təhvil verilir.

Sərbəst işlərin qiymətləndirilməsi onların sayından asılı olaraq həyata keçirilir:

- 1 ballıq sərbəst işlər hər bir tələbə tərəfindən fərdi qaydada yerinə yetirilir. Bu işlər bir qayda olaraq fənndə tədris olunan mövzulara aid olur. Tələbələr müvafiq mövzunu öyrənməli və həmin mövzu ilə bağlı özlərinin fikirlərini sərbəst şəkildə (esse kimi) yazmalıdırlar. Belə sərbəst işlərin hər biri yazılı

formada - word faylı formatında (şrift 12), həcmi ən azı 1,5-2 səhifə həcmində olmaqla (amma 4 səhifədən çox olmamaqla) - tələbənin fərdi kabinetinə yüklənir. Məzmunundan asılı olaraq belə işlər «0» və ya «1» balla qiymətləndirilir. İş «0» balla qiymətləndirildikdə müəllim bunun səbəbini izah etməlidir;

- 5 və 10 ballıq sərbəst işlər tələbələrə fərdi və ya qrup işi kimi tapşırıla bilər. Belə işlərdə konkret mövzular üzrə araşdırmanın aparılması yaxud referatın işlənilməsi tələb oluna bilər. Belə araşdırmalar zamanı tələbələr fənnin mövzularından öyrəndikləri bilikləri və əldə etdikləri bacarıqları həmin tədqiqatlarda istifadə (tətbiq) etməyə çalışmalıdırlar. Araşdırmalar zamanı tələbələr ortaya çıxan çətinlikləri müəllimlə müzakirə edə və ondan məsləhət ala bilərlər. Belə işlər yazılı şəkildə word faylı formatında yaxud Power Point formatında təqdimat formasında, qrupun bütün üzvlərinin adı qeyd edilməklə, qrupun hər bir üzvünün fərdi kabinetinə yüklənir. Bu cür işlər, müvafiq olaraq, 0-dan 5-dək yaxud 0-dan 10-dək balla qiymətləndirilir. Sərbəst işin (araşdırmanın) hazırlanmasında qrup üzvlərinin fərdi töhfələri fərqli olarsa, qiymətləndirmədə bu nəzərə alınır. Aşağı balla qiymətləndirmələr zamanı müəllim bunun səbəbini tələbənin fərdi kabinetində izah edir.

Sərbəst işlərin yerinə yetirilməsi Universitetdə müəyyən edilmiş qaydalar çərçivəsində fənni tədris edən müəllimlə tələbələr arasında əldə olunan razılığa uyğun olaraq həyata keçirilir. Sərbəst işlərin qiymətləndirilməsində şəffaflığı təmin etmək müəllimin vəzifə borcudur.

## XV. Dərsə davamiyyət

Tələbə bütün mühazirə və seminar dərslərində fəal iştirak etməlidir. Tələbənin dərsə davamiyyəti 10 ballıq sistem üzrə qiymətləndirilir. Tələbənin iştirak etmədiyi dərslərin sayı onun davamiyyət qiymətinə (balına) təsir edir: buraxılmış hər 3 dərs (6 saat) 1 balın itirilməsi ilə nəticələnir. Tələbə fənn üzrə ümumi tədris yükünün 25%-dən çox (14 saatdan çox) dərs buraxarsa, o, yekun imtahana buraxılmır. Bu halda tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır

## XVI. Aralıq qiymətləndirmə

Fənnin tədrisi prosesində tələbənin dərslərdəki cari fəallığı (mühazirədəki fəallıq, seminar-məşğələdə cavabları, qrup işlərində iştirakı və s.) 10 ballıq sistemlə 0-10 bal arasında qiymətləndirilir.

Fənnin tədrisi prosesində tələbənin əldə etdiyi bilik və bacarıqları 2 dəfə kollokvium keçirilməklə qiymətləndirilir. Kollokviumlar, müvafiq olaraq, tədrisin birinci və ikinci ayı başa çatdıqdan sonra yalnız həmin dövrdə keçirilən mövzuları əhatə edən suallar əsasında təşkil olunur. Kollokvimlar test üsulu formasında keçirilir.

Hər kollokviumda tələbənin bilikləri 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal) qiymətləndirilir. Tələbə kollokviumda iştirak etmədikdə jurnalda "0" (sıfır) bal qeyd olunur.

## XVIII. Fənn üzrə yekun qiymətləndirmə

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| İmtahan (final) | 50 | 50 % |
| Seminar (məşğələ) və ya laborator dərslərin nəticələrinə görə | 20 | 20 % |
| Aralıq imtahanı | 30 | 30% |
| Davamiyyət | | |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - “qeyri-kafi” – **F**
51-60 bal - “qənaətbəxş” – **E**
61-70 bal - “kafi” – **D**
71-80 bal - “yaxşı” – **C**
81-90 bal - “çox yaxşı” – **B**
91-100 bal - “əla” – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi “qeyri-kafi” qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Tərtib etdi:**  **Faiq Əhmədov**